# Gənc müəllimlərdə peşə identikliyinin və pesə “Mən” obrazının formalaşmasında pedaqoji təcrübənin rolu

**Sevinc Əmirova**
*Azərbaycan Dillər Universitetinin baş müəllimi*
**E-mail:** amirova77@mail.ru
**Satibə Fəhratlı**
*Azərbaycan Dillər Universitetinin müəllimi*
**E-mail:** cobanzade@mail.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos.U. Qəzvini,
psixol.ü.f.d. A. Bünyadova

**Açar sözlər:** identifikasiya, peşə identikliyi, peşə “Mən — konsepsiyası”, müəllim şəxsiyyəti, peşəkarlıq

**Ключевые слова:** идентификация, профессиональная идентичность, профессия. «Я-концепция», личность учителя, профессионализм

**Key words:** identification, professional identity, profession "I-concept", teacher personality, professionalism

Pedaqoji kadr hazırlığının ən vacib mərhələlərindən biri də pedaqoji təcrübədir. Məhz pedaqoji təcrübə prosesində tələbələrin ali məktəblərdə aldıqları bilik dərinləşir, möhkəmlənir, tələbələr pedaqoji iş sahəsində yeni bacarıq və vərdişlərə yiyələnirlər. Gənc müəllimlərin peşə hazırlığı məhz praktiki yolla başa çatır, nəzəri biliklər pedaqoji təcrübə müddətində potensial bilik, bacarıq, vərdişlərin əməli icrası nəticəsində mənimsənilir. Pedaqoji təcrübə pedaqoji ünsiyyət modelinin, pedaqoji təfəkkürün, pedaqoji qabiliyyətin formalaşmasında, dolayısı ilə pedaqoji səriştəliliyin yaranmasına, inkişafına və möhkəmlənməsinə zəmin yaradır. Pedaqoji təcrübə müəllim hazırlığı ilə məşğul olan bütün ali məktəblərin və digər təhsilyönlü müəssisələrin işinin ən vacib mərhələsini təşkil edir. Təhsilin bu mərhələsi iki səciyyəvi xüsusiyyəti ilə diqqəti cəlb edir.

- əvvəla pedaqoji təcrübə tələbələrin müəllim peşə mühitinə sosial-psixoloji adaptasiyasını asanlaşdırır.
- ikincisi təhsilin bu mərhələsi mənimsənilmiş nəzəri bilikləri bir başa təcrübəyə tətbiq etmək imkanı verir.

Yuxarıda sadaladığımız pedaqoji təcrübənin bu iki cəhəti ilə yanaşı, bu məqaləmizdə təhsilin bu mərhələsinin sosial-psixoloji tərəfi, yəni pedaqoji təcrübənin təşkilinin gənc müəllimlərdə peşə identikliyinin və peşə “mən – konsepsiyasının” formalaşmasına təsiri məsələləridir. Peşə identifikasiyası ilk dəfə eqo psixologiyasının banilərindən olan E. Erikson tərəfindən irəli sürülmüşdür (1968). E. Erikson peşə identifikasiyasını mənlik hissinin bir tərkib hissəsi kimi qəbul edirdi. Erikson hesab edirdi ki, peşə identifikasiyası şəxsin kim olduğuna öz peşəsini də daxil edərək cavab verməsidir. [1; 58] .

Peşə identikliyi nədir? Ayrı-ayrı tədqiqatçılar bu termini müxtəlif şəkildə izah etmişlər. Peşəkarlıq (Professionalizm), “peşə kimliyi“ (profession identitiy), “peşə-mənlik şüuru” (professional self concept ) terminləri ümumi olaraq eyni mənanı özündə ehtiva edir ki, bu da peşə ilə “eyniləşmə”, “bütünləşmə” mənasını ifadə edir [4; 77] .

Hər bir insanın həyatında peşəkar kimi formalaşma mühüm yer tutur. Peşəkar kimi

formalaşma prosesi uzun müddətli, demək olar ki, sonu olmayan bir prosesdir. Bu proses müxtəlif yaş dövrlərində müxtəlif məqsədlərlə bağlı olur və müxtəlif məzmun daşıyır. Professional inkişafı şəxsi inkişafdan ayrı və fərdi, gender xüsusiyyətlərini nəzərə almadan öyrənmək düzgün deyildir. Bir çox psixoloq və pedaqoqların əsərlərində peşə özünümüəyyənləşdirmə mexanizmləri, peşə özünüdərkin formalaşması, peşəkarlığın inkişafının psixoloji əsasları və peşəkar effektivliyin artırılması yolları geniş şəkildə işıqlandırılmışdır. Peşəkar kimi inkişafın nəzəri və praktiki aspektləri B. Ananyev, P. Anoxin, V. Davıdov, S. Rubinşteyn və digərlərinin əsərlərində öz əksini tapmışdır. Bir çox psixoloji ədəbiyyatlarda gələcək pedaqoqun peşəkar cəhətdən formalaşması peşə seçimi ilə bağlı niyyətlərin yaranması mərhələsindən başlayaraq, peşəkar əmək fəaliyyətində şəxsiyyətin tam reallaşması mərhələsinin əhatə etməsi kimi izah olunur (E.Klimov, L.Mitina). V. Şadrikov peşəkarlığın formalaşmasını peşəkar fəaliyyətin mənimsənilməsi prosesi və peşəkar – şəxsi keyfiyyətlərin inkişafı kimi nəzərdən keçirir. Peşəkar şəxsi – keyfiyyətləri dedikdə, alim fəaliyyət subyektinin fərdi keyfiyyətlərini, fəaliyyətin mənimsənilməsini təmin edən və onun effektivliyinə təsir edən keyfiyyyətləri başa düşürdü. Müəllif eyni zamanda peşəkar – şəxsi keyfiyyətlərin altında qabiliyyətləri xüsusi qeyd edirdi [3; 126] .

Son dövrlərdə bu sahədə aktual problemlərdən biri gələcək pedoqoqların peşəkar identikliyi ilə bağlı məsələlər diqqəti çəkir. İ.Vorotskoyun fikrincə, peşəkar identiklik və özünüdərkin tədqiqi gələcək pedoqoqların bəzi peşə ilə bağlı problemli situasiyaların həllinə imkan yaradır. Məsələ, qarşılıqlı anlama problemi, müəllim və şagirdlə (tələbə) qarşılıqlı təsir problemi və s. Özünü peşəkar kimi qavramaq həmçinin şagird haqqında təsəvvürlərə malik olmaq da deməkdir. Peşə identikliyinin formalaşmasına şəxsiyyətin inkişafında özünüdərkin ali zirvəsi kimi baxılır. Adekvat peşə özünümüəyyənetmə və əldə olunmuş pozitiv peşə identikliyi peşənin düzgün seçimini müəyyən etməyə və pedoqoji fəaliyyətin effektivliyini müəyyənləşdirir. Peşə özünütəyinetmə çətinliklər və neqativ peşə identikliyi əmək şəraitinə uyğunlaşmamaya, peşə fəaliyyətində şəxsi mənanın itirilməsi, sonra isə professional dezadaptasiya, professional böhrana və deformasiyalara gətirib çıxara bilər. Məhz peşə ilə pozitiv identifikasiya prosesində biliklərin məqsədyönlü mənimsənilməsi baş tutur, seçilmiş peşə fəaliyyətində praktiki bacarıq və vərdişlər formalaşır.

Peşəkar identikliyin strukturuna üç əsas komponent daxildir: koqnitiv, motivasiya və dəyər komponenti. Ayrı-ayrı komponentlər həm aparıcı, həm də ikinci dərəcəli rol oynaya bilərlər. Komponentlər arasında təzadlı münasibətlərin olmasına baxmayaraq onlar bütöv bir struktur kimi fəaliyyət göstərir. Birinci komponent insanının özünü gələcək peşə fəaliyyətinə bir peşəkar kimi münasibətini xarakterizə edir. Burada söhbət real və ya proqnozlaşdırılan peşəkar kimi özünüqiymətləndirmədən gedir. İkinci struktur komponent insanın peşə fəaliyyətinin məzmununa, şərtlərinə münasibəti xarakterizə edir. Burada peşəkar identikliyin əsas obyekti kimi ideal peşə "Mən konsepsiyası" deyil, peşə fəaliyyətinin motivasiya potensialı haqqında təsəvvürlər daxildir. Üçüncü komponent hər bir şəxsin özünü eyniləşdirdiyi və mənsub olduğu peşə qrupu üçün xarakterik olan dəyərlər, normalar, ənənələr sisteminə münasibətin qiymətləndirilməsi ilə xarakterizə olunur. Peşə identikliyinin inkişafının göstəricisi şəxsin bu dəyərlər və pozisiyalar haqqında düşüncələrinin üst – üstə düşməsidir.

Məhz bu iki tərəfin dəyərlərinin müqayisəsi nəticəsində peşə identikliyinin səviyyəsi haqqında qərar qəbul edilir. Qeyd etmək lazımdır ki, müəllimin pozitiv peşə identifikasiyasının formalaşmasının əsasında onun formalaşmış peşə "Mən – konsepsiyası" durur. Müxtəlif tədqiqatçılar (Markova A.K., Vaskovsaya S.V., Bobrova E.M. və b.) qeyd

edirlər ki, peşə "mən konsepsiyası"sının formalaşması şəxsiyyətin peşə sahəsindəki tələbləri, imkanları, dərk edərək öz fəaliyyətini tənzim etməsi ilə şərtlənir. A.K. Markovanın fikrincə? peşə sahəsində özünüdərketmə "insanın bir peşəkar kimi özü haqqında təsəvvürlərinə, özünə yönələn münasibət və yönəlişlik sisteminə əsaslanır" [2; 57] .

Müəllimin özünə münasibətindən, özü haqqında fikrinə peşə sahəsində təsəvvürlərdən asılı olaraq onun şagirdlərlə qarşılıqlı münasibətləri formalaşır və sinifdə psixoloji iqlim yaranır. R. Bernsin tədqiqatları göstərir ki, əgər müəllim müsbət "mən – konsepsiya"ya malikdirsə, onun özünə inamı artır, o, öz biliklərinin kifayətləndirici olmadığını etiraf etməkdən qorxmur, şagirdlərin sualları, hər şeyi bilmək istəyini öz nüfuzuna zərbə kimi qəbul etmir. Bütün bunlar da adekvat olaraq şagirdlərin təlim müvəffəqiyyətinə müsbət planda təsir edir, onlar onlar öz qabiliyyətlərini daha geniş planda təzahür etdirirlər. Neqativ peşə "Mən-konsepsiyası" isə özünə hörmətin daha aşağı səviyyəsi ilə xarakterizə olunur, onun özünə inamı azalır. Həyəcanlılıq, müdafiə olunmamaq hissi, ətrafdakılardan hiylə, nifrət, gözləmək, onu xarakterizə edən dominant psixoloji vəziyyətdir. Ona görə də belə müəllim daima öz hisslərində və gözləmələrində mərkəzləşir, uğursuzluqdan qorxur. Belə olan halda o həddindən artıq ciddilik, tündməcazlıq, aqressiya kimi müdafiə mexanizmlərindən istifadə edir.

Yuxarıda qeyd etdiklərimizdən belə qənaətə gələ bilərik ki, müəllimin peşə identifikasiyası və peşə "Mən-konsepsiyasının" formalaşması müəllimin pedoqoji fəaliyyətinə əsaslı təsir göstərir. Bu təsir xüsusən ilk növbədə müəllimin pedaqoji ünsiyyət üslubuna, onun xarakterinə təsir edir. Əsl müəllimdə pedaqoji qabiliyyətlər, onda yeni pedaqoji təfəkkür, pedaqoji refleksiya - yəni psixoloji – pedaqoji özünütəhlil vərdişi formalaşmalı və o bir peşəkar müəllim kimi pozitiv peşə identikliyinə və özünün pozitiv və neqativ keyfiyyətlərini dərk edib özünün "Mən- konsepsiya"sını qurmaq qabiliyyətinə malik olmalıdır. Bu baxımdan hesab edirik ki, pedaqoji təmayüllü ali və orta təhsil müəssisələrində təhsil alan tələbələrə verilən təhsil və təcrübə gənc müəllimlərdə peşə identikliyinin və "peşə-mən konsepsiya"sının formalaşmasına xidmət etməlidir.

Yuxarıda sadaladığmız müəllimlərdə bu iki vacib keyfiyyətin formalaşmasında ilkin mərhələ kimi pedoqoji təcrübə vacib əhəmiyyətə malikdir.

Pedaqoji təcrübələr zamanı apardığımız uzun müddətli psixoloji–pedaqoji müşahidələr aşağıdakı qənaətə gəlməyə imkan vermişdir.

Pedaqoji təcrübə üçün nəzərdə tutulan məktəbin infrastukturuna, yerləşdiyi əraziyə, məktəbin şagird kontingentinin sayına diqqət yetirmək lazımdır. Təcrübəçi tələbələrin sayı təhkim olunacaq siniflərin sayına uyğun olmalıdır. Təhkim olunan siniflərə iki və ya daha çox tələbənin təhkim olunması təcrübənin keyfiyyətini aşağı sala bilir və həmçinin belə hallar şagirdlər arasında da çaşqınlıqla qarşılana bilir. Mütəmadi olaraq müəllimlərin sıralı şəkildə dərs aparması şagirdlərdə diqqət yayınıqlığı, eyni zamanda gənc müəllimə adaptasiyasında, ona uyuşmasında çətinliklər yarada bilir. Belə olan halda şagirdlər gənc müəllimin avtoritarlığını qəbul etmirlər, onun verdiyi tapşırıqları, tələb və iradlara qarşı laqeyid və əhəmiyyətsiz münasibət göstərə bilirlər. Xüsusən də diqqət mərkəzində olmalı məsələlərdən biri də, təcrübə keçirilən məktəblərdə təcrübəsi gənc müəllimlərin "müəllimlər otağından" istifadə etmələridir. Təcrübəli məktəb müəllimləri ilə eyni iş atmosferini yaşamaq, çiyin – çiyinə çalışmaq təcrübəçi müəllimlərdə "müəllim- mən obrazının" formalaşmasında , müəllimə aid davranış və ünsiyyət üslubunun mənimsənilməsində mühüm rol oynayır.

Pedoqoji təcrübə zamanı müşahidə etdiyimiz iki situasiyanı və tələbələrlə apardığımız sorğunu nəticələri bunu bir daha təsdiqləyir. *Birinci situasiyada* təcrübəçi tələbələr məktəbin

müəllimlər otağında boş vaxtlarını və verilmiş tapşırıqları yerinə yetirirlər. *İkinci situasiyada* isə təcrübəçi müəllimlər məktəbin kiçik biologiya laboratoriyasında və ya boş sinif otaqlarında verilmiş tapşırıqları və təcrübə ilə bağlı müzakirələrini aparırdılar.

Birinci tip məktəbdə aparılan sorğuya görə təcrübəçi tələbələrin müəllim olma istəyi, müəllim peşəsi ilə özünü eyniləşdirmə arzusu və tələbatı diqqəti cəlb edir. Hətta bu tələbələr məktəbin müəllim kollektivi ilə bir başa təmasda olması, çiyin-çiyinə fəaliyyət göstərmələri zaman-zaman təcrübəçi olduqlarını unutduqlarını və bu məktəbin hər bir müəllimi kimi şagirdlərin və məktəbin qayğılarına qoşulduqlarını söyləyirlər. Məktəb həyatına bu cür aktiv qoşulma nəticəsində təcrübəçi müəllimlər peşəkar müəllimləri istər dərs prosesində, istərsə də dərsdən kənar davranış və rəftarını, peşə etikasını, kollektivlə ünsiyyət üslubunu və s. müşahidə edir. Bu müşahidələr nəticəsində gənc müəllimlər peşəkar müəllimləri imitasiya edərək, müəllimin sosial-psixoloji modelini mənimsəyirlər.

İkinci tip məktəbdə isə təcrübəçi tələbələr sanki bir növ məktəbdən və onun pedaqoji kollektivindən təcrid olunmuş halda fəaliyyət göstərirlər. Bu məktəbdə isə təcrübəçi tələbələr sanki bir növ məktəbdən və onun pedaqoji kollektivindən təcrid olunmuş halda fəaliyyət göstərirlər. Bu məktəbdə təcrübəçi müəllimlər ancaq təhkim olunduqları fənn müəllimi və ancaq bir qrup uşaqla işləyir. Təcrübəçi müəllimlər demək olar ki, məktəbin digər işçilərinin fəaliyyətini müşahidə edə bilmir və onlarla ünsiyyətdə olmurlar. Təbii ki, pedaqoji təcrübənin bu cür "keyfiyyətsiz təşkili" təcrübəçi müəllimlərdə mənfi peşə identifikasiyasının yaranmasına, müəllim kimi "mən obrazın" formalaşmasına neqativ təsir göstərəcəkdir.

Pedoqoji təcrübənin məktəbdə başladığı ilk gündən etibarən məktəb rəhbərliyinin təcrübəçi tələbələri qəbul etməsi, onları müəllimlərə, kitabxana işçilərinə, katiblərə, hətta texniki işçilərə "müəllim" kimi təqdim olunması təcrübənin ilk günündən etibarən özünə inam hissinin formalaşmasına, məktəbdəki fəaliyyətinə məsuliyyətlə yanaşmasına zəruri zəmin yaradır. Bu cür təqdimat sosial persepsiyanı da asanlaşdırır. Məktəb kollektivinin təcrübəçi müəllimləri kollektivin üzvü kimi qavramasında, təcrübəçi müəllimlərin bir-birini müəllim kimi qavramasında, təcrübəçi müəllimlərin özünü müəllim kimi qavramasında mühüm sosial psixoloji faktor kimi çıxış edir. Sosial persepsiya sayəsində təşəkkül edən insan surətləri ünsiyyət prosesinin və birgə fəaliyyətin tənzim edilməsində mühüm rol oynayır [1; 75] .

**Məqalənin aktuallığı**. Müəllimin peşə identifikasiyası və peşə "Mən-konsepsiyasının" formalaşması müəllimin pedaqoji fəaliyyətinə əsaslı təsir göstərir. Bu təsir xüsusən ilk növbədə müəllimin pedaqoji ünsiyyət üslubuna, onun xarakterinə təsir edir.

**Məqalənin elmi yeniliyi.** Əsl müəllimdə psixoloji–pedaqoji özünütəhlil vərdişi formalaşmalı və o bir peşəkar müəllim kimi pozitiv peşə identikliyinə və özünün pozitiv və neqativ keyfiyyətlərini dərk edib özünün "Mən-konsepsiya"sını qurmaq qabiliyyətinə malik olmalıdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Məqalədə elmi ədəbiyyatın təhlili əsasında müəllimin peşə identifikasiyası və peşə "Mən-konsepsiyasının" formalaşmasının məzmun və mahiyyətinin açılmasına təşəbbüs edilir.

## Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya: Dərslik. Bakı, 2003.
2. Erikson E.H (1968) İdentity Youth and Crisis. W.W . Norton. New York.
3. Jellineek M. (1995 ) Professional Identitiy.

4. Бугайчук В. Профессиональная идентификация будущего преподавателя на современном этапе развития. Международный научно-исследовательский журнал. Выпуск 8.
5. Андреева Г.М. Социальная психология. М.: Аспект Пресс, 1996.

**С. Амирова, С. Фахратлы**

## Роль педагогической практики в формировании профессиональной идентичности и профессионального «Я-образа» у молодых учителей

## Резюме

Процесс становления как профессионала — это долгосрочный, почти бесконечный процесс. Этот процесс связан с различными целями в разном возрасте и имеет различный контент. Профессиональное развитие отделено от личного развития, и неправильно учиться индивидуально и без учета гендерных особенностей.

**S. Amirova, S. Fahratlı**

## The role of pedagogical practice in the formation of professional identity and the professional "I-image" among young teachers

## Summary

The process of formation as a professional is a long-term, almost endless process. This process is related to different purposes at different ages and has different content. Professional development is separate from personal development, and it is wrong to learn individually and without considering gender features.

**Redaksiyaya daxil olub:** 03.03.2018